# QANUNUN ALİLİYİ BAŞLICA PRİNSİPİMİZDİR

**Çoxəsrlik dövlətçilik ənənəsi olan Azərbaycan Respublikasının Ədliyyə sisteminin xalqımızın müstəqillik uğrunda mübarizəsini, onun şanlı keçmişini əks etdirən zəngin tarixi vardır. Şərqin ilk demokratik dövləti olan Azərbaycan Xalq Cümhuriyyətində Ədliyyə fəaliyyətinə xüsusi əhəmiyyət verilərək, Ədliyyə Nazirliyi dövlətimizin yarandığı gün - 1918-ci il may ayının 28-də təsis edilmişdir. Həmçinin, ədliyyə orqanları və məhkəmələrin fəaliyyəti ilə bağlı bir sıra qərarlar qəbul edilmiş, o cümlədən 1918-ci il noyabr ayının 14-də Azərbaycan Məhkəmə Palatasının Əsasnaməsi, noyabrın 22-də isə Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq edilmişdir. Ədliyyə Nazirliyinin yenidən və əsaslı surətdə təsis ediləsi ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf edir. 27 oktyabr 1970-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyi təsis olunaraq fəaliyyəti təmin edilmiş, məhkəmə orqanlarına təşkilati rəhbərliyini həyata keçirmiş, əhaliyə hüquqi yardımı yaxşılaşdırmış, notariat fəaliyyətinin və məhkəmə ekspertizasının aparılmasını təmin etmiş, ümumiyyətlə, ədliyyə işi təkmilləşdirilərək onun gələcək inkişafı üçün əlverişli zəmin yaradılmışdır. Azərbaycan ədliyyəsi ölkə dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra da ulu öndər Heydər Əliyevin diqqətindən kənarda qalmamışdır. 1993-cü ildə hakimiyyətə qayıdışından sonra ümummilli liderin rəhbərliyi ilə ədliyyə sisteminin inkişafını təmin edən ardıcıl və məqsədyönlü islahatlar həyata keçirmiş, nazirliyin səlahiyyətləri genişlənmiş, cəmiyyətdə rolu artmışdır.**

Ulu öndərin Ədliyyə sahəsində göstərdiyi böyük qayğının təzahürü olaraq 11 noyabr 2000-ci il tarixdə imzaladığı Sərəncamla Ədliyyə Nazirliyinin ilk Əsasnaməsinin təsdiq edildiyi gün - 22 noyabr Azərbaycan Respublikası Ədliyyə işçilərinin peşə bayramı günü kimi təsis edilmişdir. 2006-cı ildə ölkə Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə ədliyyə orqanlarının fəaliyyəti ilə bağlı bir sıra mühüm sənədlər qəbul olunmuş, nazirliyə yeni vəzifələr həvalə edilmiş, struktur təkmilləşdirilmişdir. Müstəqillik dövründə ilk dəfə olaraq dövlət başçısının 18 aprel 2006-cı il tarixli Fərmanı ilə Ədliyyə Nazirliyi haqqında Əsasnamə təsdiq edilərək ona Hüquq-Mühafizə orqanı statusu verilmiş, habelə "Ədliyyə orqanlarında qulluqkeçmə haqqında" Azərbaycan Respublikasının 26 may 2006-cı il tarixli Qanunu qəbul olunmuş və ölkə Prezidenti tərəfindən "Ədliyyə orqanlarının inkişafı" haqqında 17 avqust 2006-cı il tarixli Fərman imzalanmışdır.

Dövlət başçısının 6 fevral 2009-cu il tarixli Sərəncamı ilə "Azərbaycan Ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqramı" təsdiq edilərək həyata keçirilmişdir. 18 dekabr 2018-ci il tarixli sərəncamı ilə Azərbaycan Ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı təsdiq edilmişdir.

Dövlət başçısının "Məhkəmə-hüquq sahəsində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanı məhz ölkəmizdə həyata keçirilən hərtərəfli islahatların mühüm tərkib hissəsidir. Fərman iqtisadi artımda mühüm əhəmiyyət daşıyan sahibkarlığın inkişafı, məhkəməyə müraciət imkanlarının daha da genişləndirilməsi, məhkəmə fəaliyyətinə müdaxilələrin qarşısının alınması, icraatın səmərəliliyininin artırılması və süründürməçilik hallarının aradan qaldırılması, hakimlərin iş yükünün azaldılması və sair problemlərin həllində qarşıya mühüm vəzifələr qoyub.

Azərbaycanda həyata keçirilən məhkəmə islahatları, tətbiq olunan yeniliklə beynəlxalq aləmdə böyük maraq doğurur və əldə olunan uğurlar hətta Azərbaycandan kənarda da təqdir edilir. Hakimlərin seçim prosedurunun şəffaflıq və obyektivliyi digər ölkələr üçün də örnək kimi dəyərləndirilir. Azərbaycan Respublikasında ədalət mühakiməsi sistemində aparılmış islahatlar, ölkəmizdə məhkəmələr üçün unikal infrastrukturun yaradılması, müasir informasiya texnologiyalarının və yeniliklərin tətbiqi beynəlxalq, ekspertlər tərəfindən təqdirəlayiq fəaliyyət və qanunçuluğun təmin edilə bilməsini mümkün edən amillərdən biri kimi qiymətləndirilir. Ölkədə iqtisadi inkişafa, əhalinin maddi və sosial vəziyyətinin yaxşılaşdırılmasına yönələn qanun və nazirlik tərəfindən hazırlanmış normativ akt layihələrinin sayı 800-ə çatıb, 1300-dək belə akt ekspertizadan keçirilib. 1600-dək sənəd Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilib. Yeni qanunvericiliyə əsasən notariat sahəsində mütərəqqi innovasiyalar, o cümlədən vətəndaşlara istənilən yerdə notariat hərəkətlərinin aparılmasına, təxirə salınmayan hallarda səyyar və məsafədən xidmətlərin göstərilməsinə, notariat fəaliyyəti barədə məlumatların əldə edilməsinə imkan verən elektron ədliyyə köşkü, səyyar notariat çantası və mobil notariat qovluğu istifadəyə verilib. Bu sahədə islahatlara və yeniliklərə beynəlxalq maraq artmışdır və bir çox dövlətlər müsbət təcrübəmizdən bəhrələnirlər.

Ədliyyə Nazirliyi eyni zamanda Azərbaycan Respublikası adından xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla hüquqi yardım və əməkdaşlıq haqqında müqavilələrin bağlanmasını və onların icrasını təmin edir, müxtəlif sahələrdə hüquqi yardım göstərilməsi, o cümlədən cinayət törətmiş şəxslərin təslim edilməsi, məhkumların verilməsi və digər məsələlərlə məşğul olur.

Azərbaycan bir çox xarici dövlətlərdə, o cümlədən Türkiyə Respublikası, Rusiya Federasiyası, Bolqarıstan Respublikası, Ukrayna, Gürcüstan, Qazaxıstan Respublikası, Özbəkistan Respublikası, Qırğızıstan Respublikası, İran İslam Respublikası, Birləşmiş Ərəb Əmirlikləri, İordaniya, Litva, Çin Xalq Respublikası, Moldova Respublikası və sairlərlə hüquqi yardım haqqında ikitərəfli müqavilələr bağlayıb. Bu müqavilələr hüquqi yardımın müxtəlif sahələrini, o cümlədən ekstradisiyanı, məhkumların cəzalarının qalan hissəsinin çəkilməsi üçün verilməsini, cinayət, mülki, ailə və ticarət işləri üzrə hüquqi yardımı əhatə edir.

Ədliyyə Nazirliyi tərəfindən vətəndaş cəmiyyətinin və yerli icra hakimiyyətinin nümayəndələri ilə birgə gənclər arasında ailə dəyərləri haqqında və erkən nikahlara qarşı mütəmadi profilaktik maarifləndirici tədbirlər keçirilir. Ailə institutunun inkişafına və nikah münasibətlərinin möhkəmlənməsinə dəstək verilməsi, nikahın pozulması hallarının mümkün qədər qarşısının alınması məqsədilə mediya xidmətini göstərilməsinə dair vətəndaş cəmiyyəti institutları ilə birgə layihələr həyata keçirilir. Ədliyyə orqanları tərəfindən uşaqlara qayğı göstərilir. 20 noyabr - Ümumdünya Uşaqlar Günü və BMT-nin Uşaq Hüquqları Konvensiyasının qəbul edilməsinin ildönümü münasibətilə ölkəmizdə elan olunmuş "Uşaq Hüquqları Aylığı" çərçivəsində Ədliyyə Nazirliyi tərəfindən fond və ictimai birliklərlə birgə uşaq evlərində tədbirlər keçirilir. Müasir Azərbaycan hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin inkişafı, ədliyyə sisteminin səmərəli inkişafı sosial-iqtisadi və mədəni inkişafın təmin olunması ilə üzvi əlaqədə baş verir. Bütün bunlar vətəndaşlarımızda öz dövlətinə görə yüksək qürur hissi doğurur.

**Səbinə ƏHMƏDOVA,**
**Gəncə şəhər Kəpəz rayon**
**Qeydiyyat Şöbəsinin rəisi.**

Respublika.-2019.- 20 noyabr.- S.6.